2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımova Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 noyabr 2014-cü il tarixli, 11 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 26 noyabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Validə Kazımova 2014-cü il dekabrın 23- nə təyin edilmiş bələdiyyə seçkilərində 100 saylı Şəmkir – Daşkəsən seçki dairəsindən Qapanlı bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Süleymanov Zakir Musa oğlu Hüseynov Şahəddin Həsən oğlunun namizəd kimi qeydə alınması barədə dairə seçki komissiyası tərəfindən ləğv edilməsi və namizədliyinin qeydə alınmaması barədə müvafiq qərar qəbul edilməsinə dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 noyabr 2014-cü il tarixli 11 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli, 11/53-2 saylı qərarı ilə təsdiq edilmiş (23 iyul 2010-cu il tarixli 15/58-6 saylı və 19 oktyabr 2012-ci il tarixli 5/16 saylı qərarları ilə dəyişikliklər edilmiş) Təlimatın tələblərinə uyğun və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Z.M.Süleymanov müraciətini onunla əsaslandırmışdır ki, 100 saylı Şəmkir-Daşkəsən seçki dairəsindən Qapanlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Ş.H.Hüseynov məhkəmənin qanuni qüvvədə olan hökmü ilə islah işlərinə məhkum edilmiş, eyni zamanda mülki iddia üzrə dəymiş ziyanı bu günədək ödəməmişdir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi tərəfindən təqdim edilmiş arayışdan görünür ki, Ş.H.Hüseynov Şəmkir rayon məhkəməsinin 3 avqust 2012-ci il tarixli hökmünə əsasən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci və 46.1-ci maddələri ilə 3 il müddətinə dövlət və yerli özünüidarə orqanlarında müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 2 il islah işləri cəzasına məhkum edilmiş, Gəncə Apellyasiya Məhkəməsinin 19 sentyabr 2012-ci il tarixli qərarı ilə həmin hökm dəyişdirilərək 1 il müddətinə dövlət və yerli özünüidarə orqanlarında müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 1 il islah işləri cəzasına məhkum olunmuşdur.

Ş.H.Hüseynovun məhkum olunduğu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci maddəsi həmin Məcəllənin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərin təsnifatına aid deyildir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 13.3.1-ci və 13.3.2-ci maddələrinə görə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslərin və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan cinayətlərə (ağır, xüsusilə ağır) görə məhkum olunmuş şəxslərin bələdiyyə üzvü seçilmək hüququ (passiv seçki hüququ) yoxdur.

Müraciətin hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması nəticəsində dairə seçki komissiyasının mübahisələndirilən qərarının dəyişdirilmədən saxlanılması üçün hüquqi əsasların olması müəyyən edilmişdir.

Göstərilənlərə əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 100 saylı Şəmkir - Daşkəsən seçki dairəsi dairə seçki komissiyasının 22 noyabr 2014-cü il tarixli 21/59 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Dairə seçki komissiyasının Ş.H.Hüseynovun namizəd kimi qeydə alnması barədə qərarı Seçki Məcəlləsinin 60-cı maddəsinin tələblərinə uyğun olaraq qəbul edilmişdir.

Göstərilənlərə əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 100 saylı Şəmkir – Daşkəsən seçki dairəsi dairə seçki komissiyasının 22 noyabr 2014-cü il tarixli 21/59 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 215.1.5-ci, 216.1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1-7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 100 saylı Şəmkir – Daşkəsən seçki dairəsindən Qapanlı bələdiyyəsi üzrə qeydə alınmış namizəd Süleymanov Zakir Musa oğlunun şikayəti əsassız olduğundan təmin edilməsin.

2. 100 saylı Şəmkir – Daşkəsən seçki dairəsinin 22 noyabr 2014-cü il tarixli 21/59 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova